

# Birliyimizin növbəti nümayişi

## Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı sarsılmazdır və belə də olacaq

*"Yüz dörd il əvvəl müsəlman aləmində Azərbaycan xalqı ilk xalq cümhuriyyətini qurmuşdur. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, iki ildən sonra süqut etdi və Azərbaycan öz müstəqilliyini itirdi. Yalnız 1990-cı illərin əvvəlində Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi və 30 ildir Azərbaycan xalqı azad yaşayır, müstəqillik şəraitində yaşayır, öz həyatını özü qurur və müstəqillik yolu ilə inamla gedir. Bu 30 il ərzində türk qardaşlarımız daim bizim yanımızda olublar. Biz 30 il ərzində bu dəstəyi, bu qardaşlıq dəstəyini hər zaman hiss etmişik, bu gün də hiss edirik və bu gün Türkiyə-Azərbaycan yenə də bir yerdədir. Biz iki həftə bundan əvvəl Türkiyənin gözəl yerlərindən biri olan Rizedə əziz qardaşımla bərabər idik, iki həftədən sonra Bakıda yenə də bərabərik". Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev "TEKNOFEST Azərbaycan" festivalındakı çıxışında bildirib.*

Dövlət başçısı qeyd edib ki, Türkiyə və Azərbaycan bir yerdə nə qədər inamla addımlasa, bölgəmizdə sülh və barış o qədər də möhkəm olacaqdır. Bunu biz və bütün dünya İkinci Qarabağ müharibəsi zamanı gördük. Türkiyə bizim yanımızda idi. Əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarında "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" deməsi bizə əlavə güc, ruh, inam verdi. Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq.

Azərbaycanda ilk dəfə olaraq Türkiyə Teknoloji Takımı Vakfı (T3 Vakfı), Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyinin birgə təşkilatçılığı və "Azercell Telekom" MMC-nin baş sponsorluğu ilə keçirilən "TEKNOFEST" Aerokosmik və texnologiya festivalı tarixə qovuşdu. Bu il beş illiyini qeyd edən festivalın məqsədi aviasiya, kosmik sənaye, rəqəmsal iqtisadiyyat kimi sahələrin gənclər arasında təbliği, bu sahələrdə sahibkarlığın təşviq edilməsi, gənc mühəndislərin bilik və bacarıqlarının üzə çıxarılması, eləcə də milli texnologiyaların geniş ictimaiyyətə təqdim olunmasıdır. İlin ən yaddaqalan tədbirinə çevrilən "TEKNOFEST Azərbaycan"ı dörd gün ərzində yüz minlərlə insan ziyarət edərək Azərbaycan və Türkiyənin dövlət və özəl qurumlarının innovativ layihələri ilə tanış oldular. Texnologiya sahəsinin parlaq simalarını kəşf edən bu festival çərçivəsində səkkiz texnoloji yarış, üç beynəlxalq tədbir keçirildi, qalib komandaların üzvləri Azərbaycan və Türkiyə prezidentləri və digər rəsmi qonaqlar tərəfindən təltif olundular.

Müstəqillik Günündə qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə səfəri, bayram tədbirlərində bizimlə birlikdə iştirakı olduqca qürurvericidir. Bu qardaşlıq işğaldan azad edilmiş ərazilərimizdə görülən işlərdə də özünün aydın ifadəsini tapır. Bakıda ilk dəfə keçirilən "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya festivalında birgə iştirak edən Azərbaycan və Türkiyə prezidentləri iki dost, qardaş, müttəfiq ölkənin keçdiyi inkişaf yoluna nəzər salıb əzəli və əbədi qardaşlığımızı şərtləndirən amilləri açıqladılar. Azərbaycanın qarşılaşdığı haqsızlıqlara, ədalətsizliklərə baxmayaraq, diplomatiyada, iqtisadiyyatda, mədəniyyətdə dastan yazdığı, cənab İlham Əliyevin qətiyyətli liderliyi ilə aydın bir gələcəyə doğru əmin addımlarla irəlilədiyi xüsusi qeyd edildi. Vurğulandı ki, Azərbaycan və Türkiyə harada haqsızlıq, ədalətsizlik varsa, orada səsini ucaldır, ədalətə çağırışlar edir. İki dost ölkə hər zaman bir yerdədirlər. "TEKNOFEST Azərbaycan" festivalı Azərbaycan və Türkiyə gənclərinin nümayiş etdirdikləri birlik, həmrəylik fonunda iki qardaş ölkənin münasibətlərinin gələcək inkişafının da aydın mənzərəsini yaratdı. Hazırkı dövrdə elmin, yeni texnologiyaların, yeni ideyaların ölkələrin inkişafında rolunu nəzərə alsaq, hər bir yeniliyə açıq olan iki qardaş ölkənin gənclərin inkişafına göstərdikləri diqqət təqdir olunur. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu fikri böyük inam və əminliklə qeyd etdi ki, Azərbaycan ilə birlikdə hələ bir çox layihələrdə gənclərimizə yeni üfüqlər açmağı və milli texnoloji həmləmizi birlikdə reallaşdırmağı davam edəcəyik.

"Bizim tariximiz parlaqdır və tariximizin ən önəmli anlarında biz bir yerdə idik. Bakının erməni işğalından azad edilməsinə həsr olunmuş hərbi paradda Türkiyə və Azərbaycan əsgərləri çiyin-çiyinə Azadlıq meydanına çıxmışdılar. Bunun təkrarını biz 2020-ci ildə Zəfər paradında gördük. Tarixi Zəfərimizdən sonra yenə də əziz qardaşımla birlikdə Azadlıq meydanında biz Türkiyə və Azərbaycan ordularının hərbi paradını qəbul etdik. Bu, birliyimizin təntənəsi idi, bu, bütün dünyaya verilən aydın mesaj idi. Biz bir yerdəyik, bir yerdə olacağıq, gücümüz də gündən-günə artacaq". Bu fikirləri Prezident İlham Əliyev Bakıda keçirilən "TEKNOFEST Azərbaycan" festivalında çıxışı zamanı deyib. "Keçən il Milli Qurtuluş Günündə - iyunun 15-də hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan Şuşada idi. Bu da çox əlamətdar hadisə idi. 15 iyun da bayram günüdür, 28 may da bayram günüdür. Biz bu bayram günlərini bir yerdə qeyd etdik və tarixi Şuşa Bəyannaməsini imzaladıq. Türkiyə və Azərbaycan rəsmən müttəfiqlik zirvəsinə ucaldı və bu müttəfiqlik özünü hər yerdə göstərir - siyasətdə, iqtisadi əlaqələrdə, enerji, nəqliyyat layihələrinin həyata keçirilməsində, mədəniyyətdə, təhsildə, ordu quruculuğu istiqamətində. Bu gün "TEKNOFEST" bizim birliyimizin növbəti nümayişidir", - deyə dövlətimizin başçısı əlavə edib.

Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq münasibətləri Prezident İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəhbərlikləri ilə ən yüksək səviyyədə davam etməkdədir. Ölkə rəhbərlərinin qarşılıqlı rəsmi səfərləri hər iki ölkədə böyük təntənə ilə qarşılanır və bu səfərlərin hər biri iki dost-qardaş ölkə arasında bütün sahələr üzrə sıx əməkdaşlığı daha da möhkəmləndirir. Türkiyə iqtisadi, siyasi, hərbi və digər sahələr üzrə dünyada lider dövlətlərdən birinə çevrilmişdir. Türkiyə bu gün dünya miqyasında güc mərkəzi kimi müsbət rol oynayır və bu sabitlik üçün çox önəmlidir. Türkiyə həmişə olduğu kimi, qardaşlarını Azərbaycanın haqlı davasında da yalnız qoymayaraq bütün dünyaya Qarabağın Azərbaycanın əzəli torpaqları olduğunu, bu haqq davasında heç bir ölkənin Azərbaycana mane ola bilməyəcəyini bəyan etdi. Müharibənin ilk günlərindən Türkiyə Respublikasının Prezidenti açıqlamalar verdi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu, bütün dünyaya bir mesaj idi ki, kənarda durun, müdaxilə etməyin, Azərbaycana mane olmayın. 44 günlük Vətən müharibəsi dövründə mənəvi dəstək olmaq üçün Türkiyənin müdafiə naziri, xarici işlər naziri, digər yüksək vəzifəli rəsmilər dəfələrlə ölkəmizə səfər edərək yanımızda olduqlarını nümayiş etdirdilər və birmənalı olaraq Azərbaycana dəstək verdilər. Bu, Azərbaycana çox böyük siyasi və mənəvi dəstək oldu. Bu dəstək şanlı qələbəmizdən sonra da davam etməkdədir: "İki həftə öncə Rize-Artvin hava limanının açılışını əziz qardaşım cənab Əliyevlə birlikdə gerçəkləşdirmişdim. Bu gün isə küləyi sərt, insanı mərd bu gözəl paytaxtda, Bakıda bir başqa tarixi görüşə imza atırıq". Bunu "Teknofest Azərbaycan" texnoloji festivalında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib. Vurğulayıb ki, bu il Azərbaycan-Türkiyə arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi böyük qürurla qeyd edilir: "Diplomatik əlaqələrimiz 30 il əvvəl qurulsa da, qədər birliyimiz tarixin dərinliyinə uzanır. Hər zaman ürəklərimiz, biləklərimiz ortaq mübarizədə bir olub".



Bu gün həm Türkiyə, həm də Azərbaycan müstəqil və öz qərarlarını özləri verən, siyasi və iqtisadi baxımdan güclü dövlətlərdir. Qürur hissi ilə deyə bilərik ki, bu gün iki ölkənin rəhbərliyi xalqın arzularını dövlətin siyasəti səviyyəsində həyata keçirməkdədir. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iradəsi sayəsində ikitərəfli münasibətlərimiz getdikcə inkişaf edərək yüksək müttəfiqlik səviyyəsinə çatıb. Məhz liderlərimizin sayəsində Türkiyə-Azərbaycan dostluq və qardaşlığı dünya miqyasında da yüksək qiymətləndirilir. İki ölkə arasında imzalanmış müttəfiqlik haqqında Şuşa Bəyannaməsi dostluq və qardaşlığın ən yüksək nöqtəsi oldu. Şuşa Bəyannaməsi həm də dünyaya verilən mühüm mesajdır. Bu sənədi imzalamaqla Türkiyə ilə həm sözdə, həm də əməldə bir olduğumuzu dünyaya bəyan etdik. Bəyannamə eyni zamanda, qardaş ölkələrimiz arasında əməkdaşlığın mahiyyətini rəsmiləşdirdi. Təhlillər göstərir ki, Azərbaycan və Türkiyənin məqsədyönlü xarici siyasətlərinin nəticələri iki qardaş ölkənin inkişaf dinamikasına birbaşa təsir etməkdədir. Qardaş Türkiyənin beynəlxalq aləmdəki yerinin və rolunun sürətlə güclənməsini təmin edən başlıca amillərdən biri də Azərbaycanın iqtisadi müstəqilliyidir. Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi uzaqgörən enerji strategiyası təkcə Azərbaycanın deyil, Türkiyənin də ümumi həyatına əlavə güc qatıb. "Türkiyə-Azərbaycan qardaşlığı, birliyi xalqlarımız üçün əsas yol istiqamətidir". Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev "TEKNOFEST Azərbaycan" festivalındakı çıxışında bildirib.

"Teknofest" Aerokosmik və Texnologiya festivalının sonuna gəldik. Festival bitdiyi üçün hüznlü olsaq da, qardaşlığımız bərkidiyi üçün sevincliyik". Bunu "Baykar" şirkətinin texniki direktoru və "Teknofest" Aerokosmik və Texnologiya Festivalının İdarə Heyətinin sədri Selçuk Bayrakdar deyib. Bağlanış mərasimində o, hər kəsi avqust ayında Qaradəniz - Samsunda keçiriləcək "Teknofest"ə dəvət edib. "Ümidvaram ki, növbəti illərdə "Teknofest"i Şuşada keçirəcəyik. İnanıram ki, bu festival həyatımıza müsbət mənə qatacaq. Dünən Azərbaycanın müstəqillik gününü, bu gün isə İstanbulun fəthinin 569-cu ilini qeyd edirik. Bu möhtəşəm festivalın təşkilində rolu olan rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana, Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edirəm", - deyə vurğulayıb. "TEKNOFEST" kimi tədbirlər gənclərimizdə informasiya texnologiyalarına marağı artırır. Möhtərəm Prezidentimizin də qeyd etdiyi kimi, yalnız iqtisadi sahədə deyil, texnologiya sahəsində də Azərbaycan və Türkiyə mesaj verdi ki, gələcəyə birgə addımlayacağıq. "TEKNOFEST" müstəqilliyi, qardaşlığı, elmi və əxlaqı əldə rəhbər tutan bir ruhdur. Bu ruh ölkələrimizi tam müstəqil və firavan edəcək, səmalarımızı, dənizlərimizi, torpaqlarımızı qoruyub dirçəldəcək yüksək texnologiyaları bütün cəmiyyətlə birlikdə inkişaf etdirmək səfərbərliyidir. Mənə dünən ilk dəfə görməyin nəsib olduğu işğaldan azad edilmiş qədim şəhərimiz Şuşada, Cıdır düzündə, o geniş düzdə azad şəkildə gəzərkən bu ruhu daha da dərindən hiss etdim. "TEKNOFEST"i niyə keçiririk?" deyə soruşduğum universitet tələbəsi gənc bir qız bu ruhu belə ifadə edərək dedi: "Dünya Türkün gücünü görsün, yerini bilsin".

Qürurverici və sevindirici haldır ki, Türkiyə-Azərbaycan birliyi, dostluğu və qardaşlığı bu gün də uğurla davam edir, xalqlarımız arasındakı saf, səmimi və doğma münasibətlər daha da dərinləşərək yeni mərhələyə qədəm qoyur. Bütün bunlar onu göstərir ki, əbədi və əzəli Azərbaycan-Türkiyə birliyi, dostluğu və qardaşlığı sarsılmazdır və daim belə də olacaq.

**Mustafa KAMAL,**
**"Respublika".**